# Azad olunmuş ərazilərin bərpası regional əməkdaşlıq üçün geniş imkanlar açır




***Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 2021-ci ilin əvvəllərindən başlanmış genişmiqyaslı bərpa işləri uğurla davam etdirilir. Böyük Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsi dövründə qələbənin təmin olunmasında, olduğu kimi, bu gün aparılan bərpa işlərinə də şəxsən Azərbaycan Prezidenti İlham Əliyev rəhbərlik edir. Dövlət başçısı son aylarda, demək olar ki, bütün azad olunmuş ərazilərimizə gedib, aparılan bərpa işləri ilə yerində tanış olub, hazır obyektlərin açılışını edib, yeni tikintilərin təməlini qoyub.***

Təbii ki, bərpa işləri Azərbaycanın incisi Şuşadan başlayıb. Prezident Cıdır düzündə təşkil olunmuş "Xarıbülbül" musiqi festivalının açılışında da bildirib ki, azad edilmiş bütün torpaqlar bərpa ediləcək. Onun sözlərinə görə, hazırda bütün ərazilərdə ziyanın hesablanması, şəhərlərin baş planlarının hazırlanması işləri görülür: "Baş planlar təsdiq olunduqdan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Biz isə bu torpaqları bərpa edəcəyik".

Şuşada 1768-1769-cu illərdə inşa edilmiş Yuxarı Gövhərağa məscidi artıq təmir olunub. Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyulub. Erməni işğalı dövründə qurumuş "Xan qızı Natəvan" bulağı, Vaqifin məqbərəsi, bəzi ev-muzeylər bərpa olunub. Prezident Şuşada olarkən bəyan edib: "Biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Biz onları bərpa edəcəyik".

Dövlət başçısı tikinti-quruculuq işləri barədə Tərtər, Bərdə, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonlarına səfərləri zamanı da geniş söhbət açıb. Bildirib ki, Qubadlı camaatını yerləşdirmək üçün rayonda çox böyük işlər görülməlidir. Bərpa-quruculuq prosesi zamanı infrastruktur işləri birinci sıradadır. Dövlət başçısı qürur hissi ilə deyib ki, indi Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkilir ki, insanlar ondan rahatlıqla istifadə etsinlər. Yeni yol çəkiləndən sonra Qubadlı sakinləri istehsal edəcəkləri məhsulları bazarlara vaxtında, itkisiz çatdırmaq imkanı qazanacaqlar.

Prezident qeyd edib ki, Zəngilan hava limanı gələn il istifadəyə veriləcək və qubadlılar da ondan istifadə edəcəklər. Qubadlı rayonunun iqtisadi inkişaf planı ayrıca hazırlanacaq. İnfrastruktur layihələri artıq təsdiq edilib. Sosial infrastrukturla bağlı baş planda bütün məsələlər – məktəblər, xəstəxanalar və digər sosial obyektlər, yaşayış binaları əhatə olunacaq. Rayon böyük potensiala malikdir, zəngin təbiəti, təbii sərvətləri var. Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın böyük sərvətidir. Eləcə də Bəsitçay, Tərtər çayı. Ermənilər bizi bunlardan məhrum etmişdi. Ona görə iqtisadi inkişafla, hansı sahələrin daha əvvəl yaradılması ilə bağlı düzgün planlaşdırma aparılmalıdır.

Oktyabrın 20-də Zəngilan rayonunda olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada da yenidənqurma-bərpa işlərinin gedişi ilə tanış oldular, ictimaiyyət nümayəndələri ilə görüşdülər. Əvvəlcə rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə, eləcə də Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar. Eyni zamanda, "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər. Bu səfər, eləcə də Prezidentin bundan əvvəlki səfərləri erməni işğalından azad edilmiş rayonlarımızda qısa müddət ərzində nə qədər böyük işlərin görüldüyünü əyani şəkildə göstərir.

Yaxşı xatırlayırıq, "Ağıllı kənd" layihəsinin ilk təməli 2021-ci ilin aprelində Prezident İlham Əliyevin Zəngilana səfəri çərçivəsində qoyulub. Hazırda layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, 4 ikimərtəbəli qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə "Ağıllı məktəb" yaradılır. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait olacaq.

Prezidentin səfəri zamanı məlum oldu ki, Zəngilanda kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq məhsul istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Yaradılacaq ictimai fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.

Azərbaycanın Ali Baş Komandanı bildirib ki, indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Burada müasir, çox gözəl şəhər və kəndlər qurulacaq. Artıq burada bəzi binalar hazırdır və yəqin ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları doğma yurdlarına köçürmək mümkün olacaq.

Dövlət başçısı deyib ki, sovet vaxtı Zəngilanda hava limanı olmasa da, indi burada beynəlxalq hava limanı tikilir və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi də buradan keçir. Artıq dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Prezident böyük qürur hissi ilə bəyan edib: "Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur… Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları-bütün infrastruktur qurulacaq".

Oktyabrın 26-da Prezident İlham Əliyev və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılışı olub. Liman, şübhəsiz ki, Qarabağın və Şərqi Zəngəzurun bərpasında mühüm rol oynayacaq. Açılış mərasimində Azərbaycan lideri İlham Əliyevlə birgə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etməsi hava limanının nə qədər böyük əhəmiyyət daşıdığını göstərir.

Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır. İndən belə buraya dünyanın hər yerindən təyyarələr birbaşa uçuş həyata keçirə biləcək. Buradan isə Qarabağın hər yerinə, o cümlədən Şuşaya ən qısa yollar ayrılır. Açılış zamanı məlum oldu ki, liman çox qısa müddətdə və ən müasir səviyyədə inşa olunub. Limanın istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Eyni zamanda, sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

Füzuli Beynəlxalq Hava Limanının ən müasir tələblərə cavab verən yüksək keyfiyyətlə və qısa müddətdə inşası Azərbaycan dövlətinin qüdrətini göstərir. Bu, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunmasının və orada həyatın yenidən canlanmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, təkcə Füzulinin deyil, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

Prezident İlham Əliyev hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətlərinin birgə iştirak etdiyini bildirib. Ərdoğan isə deyib ki, bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***